# AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 60

Bakı şəhəri "01" iyul 2014-cü il

**"Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın həyata keçirilməsi barədə"**

Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2013-cü il tarixli 150 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1."Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

2. Tədbirlər Planında qeyd olunan icraçı qurumların rəhbərlərinə tapşırılsın ki, müəyyən olunmuş müddət ərzində Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi təmin edilsin və görülən işlər barədə hər yarımilliyin sonunda Səhiyyə Nazirliyinə məlumat təqdim edilsin.

3. İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru C.Məmmədova tapşırılsın ki, uşaqların icbari dispanserizasiyasına dair normativ hüquqi aktların yerlərə çatdırılması təmin edilsin.

4. Maliyyə-iqtisadiyyat şöbəsinə tapşırılsın ki, illik büdcə sifarişlərində "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın həyata keçirilməsi üçün tələb olunan vəsaitin ayrılması nəzərdə tutulsun.

5. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

Oqtay Şirəliyev

Azərbaycan Respublikası Səhiyyə
Nazirliyinin 01.07.2014-cü il tarixli
60 nömrəli əmri ilə təsdiq edilmişdir

**"Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin**

## TƏDBIRLƏR PLANI

| № | Tədbirin adı | Görülən işlər | Icra müddəti | İcraçı qurumlar |
|---|---|---|---|---|
| | **1.Dövlət Proqramının həyata keçirilməsi üzrə təşkilati tədbirlər** | | | |
| 1.1 | İcbari dispanserizasiyadan keçiriləcək və dispanserizasiyadan keçmiş uşaqların uçotunun aparılması | İcbari dispanserizasiyadan keçiriləcək və dispanserizasiyadan keçmiş uşaqların uçotunun aparılması məqsədilə statistik hesabat formalarının təkmilləşdirilməsi | 2014 | TYTŞ, İSM, SIM |
| 1.2. | İcbari dispanserizasiyadan keçmiş uşaqların registrinin yaradılması | Sağlamlıq vəziyyətini müəyyənləşdirmək üçün icbari dispanserizasiyadan keçmiş uşaqların registrinin yaradılması | 2014 | TYTŞ, SIM |
| 1.3. | Dispanserizasiya zamanı aparılmış müayinə və müalicə-sağlamlaşdırıcı tədbirlərin elektron qeydiyyatının aparılması və onun mövcud elektron sağlamlıq kartı sisteminə inteqrasiyasının təmin edilməsi | Uşaqların dispanserizasiyası haqqında məlumatların "Vətəndaşların Elektron Sağlamlıq Kart Sistemi"nə daxil edilməsi işinin təşkili | Mütəmadi | TYTŞ, SİM |
| | **2.Tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi** | | | |
| 2.1 | Uşaqların dispanserizasiyasını həyata keçirən müəssisələrində | Uşaqların dispanserizasiyasını həyata keçirən müəssisələrinin hazırlanmış illik sifarişlər əsasında | 2014-2017 | TYTŞ, SOŞİPS, TOMM |

| | | | | |
|---|---|---|---|---|
| | təmir-tikinti işlərinin aparılması məqsədilə illik sifarişlərin hazırlanması | təmir-tikinti işlərinin aparılması və tibbi avadanlıqla təchiz edilməsi | | |
| 2.2 | Uşaqlara tibbi xidmətlər göstərən ilkin səhiyyə müəssisələrinin lazımi avadanlıq, laborator və tibbi ləvazimatlarla, eləcə də kompüter texnikası ilə təchiz edilməsi | Respublikanın şəhər və rayon səhiyyə idarə və müəssisələrdən zəruri avadanlıq, laborator və tibbi ləvazimatlara, eləcə də kompüter texnikasına olan tələbat əsasında təchizatın təmin edilməsi və yenilənməsi | 2014-2017 | Respublikanın şəhər və rayon səhiyyə idarə və müəssisələri, TYTŞ, İTM |
| | **3.Uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi** | | | |
| 3.1 | Dispanserizasiya tədbirləri çərçivəsində uşaqlara göstərilən tibbi xidmətlər üzrə klinik protokolların və müvafiq təlimatların hazırlanması | -dispanserizasiya tədbirləri çərçivəsində uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması məqsədilə qüvvədə olan, o cümlədən müxtəlif xəstəlikləri olan uşaqların dispanser müşahidəsinə dair metodiki tövsiyələrin təkmilləşdirilməsi | 2014 | TYTŞ, İSİM |
| | | -müasir tələblərə uyğun uşaq xəstəliklərinin müalicəsinə dair klinik protokolların, metodik vəsaitlərin və təlimatların hazırlanması | Mütəmadi | TYTŞ, İSİM |
| 3.2 | Dispanserizasiya çərçivəsində uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin monitorinq və qiymətləndirmə mexanizminin hazırlanması | -dispanserizasiya çərçivəsində uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin monitorinq indikatorlarının müəyyən edilməsi | 2014 | TYTŞ, RUKX, ETPİ, İSİM |
| | | -rayon (şəhər) tibb müəssisələrində dispanserizasiya xidmətlərinin mütəmadi monitorinqinin həyata keçirilməsi | Mütəmadi | TYTŞ, ETPİ, RUKX, |
| | | -elektron proqramlarından istifadə etməklə qiymətləndirmə mexanizmi vasitəsi ilə monitorinqlərin nəticələrinin təhlili | Mütəmadi | TYTŞ, ETPİ, RUKX, SİM |

| | | | | |
|---|---|---|---|---|
| 3.3 | Xəstə və xəstələnmə riski olan uşaqlar üçün sanatoriya-kurort və bərpa müalicəsinin təşkili | Xəstə və xəstələnmə riski olan uşaqların dispanserizasiya planına uyğun olaraq ambulator, stasionar, sanatoriya-kurort və bərpa müalicəsinin təşkili | 2014-2017 | TYTŞ, RUKX, yerli səhiyyə idarə və müəssisələri |
| 3.4 | Çətin həyat şəraitində olan xəstə və xəstələnmə riski olan uşaqların tibbi-sosial müəssisələrdə yerləşdirilməsi | Çətin həyat şəraitində olan uşaqların tibbi göstərişə əsasən sanatoriya-kurort və bərpa müalicəsinin təşkili | Mütəmadi | TYTŞ, yerli səhiyyə idarə və müəssisələri |
| 3.5 | Dispanserizasiya məqsədi ilə aparılan tibbi müayinələr zamanı aşkar edilən xəstə uşaqların ixtisaslaşdırılmış tibb müəssisələrində müalicəsinin təşkili | Dispanserizasiya məqsədi ilə aparılan tibbi müayinələr zamanı aşkar edilən xəstə uşaqların sağlamlıq qruplarına uyğun olaraq ixtisaslaşdırılmış tibb müəssisələrində müalicəsinin təşkili | Mütəmadi | TYTŞ, yerli səhiyyə idarə və müəssisələri |
| | | **4. Kadr hazırlığı** | | |
| 4.1 | Uşaqların dispanserizasiyasını həyata keçirən ilkin səhiyyə işçiləri üçün xəstəliklərin erkən aşkarlanması və müalicəsi üzrə keyfiyyət standartları və klinik protokollar əsasında təlimlərin keçirilməsi | -uşaqların dispanserizasiyasını həyata keçirən tibb işçiləri üçün xəstəliklərin erkən aşkarlanması və müalicəsi üzrə keyfiyyət standartları və klinik protokolları əsasında təlimlərin keçirilməsi | Mütəmadi | TYTŞ, İSİM, RKUX, ETPİ, ADHTİ |
| 4.2 | Dispanserizasiya ilə bağlı təlim mövzularının diplomaqədər və diplomdansonrakı tədris proqramlarına daxil edilməsi | Dispanserizasiya ilə bağlı təlim mövzularının diplomaqədər və diplomdansonrakı tədris proqramlarına daxil edilməsi | 2014-2015 | KETŞ, ATU, ADHTİ |
| 4.3 | Uşaqlar arasında xəstəliklərin profilaktikası və müalicəsi, fəsadlarla mübarizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və əməkdaşlıq (yerli mütəxəssislərin | -uşaqlar arasında xəstəliklərin profilaktikası və müalicəsi, fəsadlarla mübarizə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi<br>-yerli mütəxəssislərin xaricdə təlim kurslarına göndərilməsi | Mütəmadi<br>Mütəmadi | BƏŞ, TYTŞ, RUKX, ETPİ, ATU, ADHTİ<br>BƏŞ, TYTŞ, KETŞ |

| | | | | |
|---|---|---|---|---|
| | xaricdə təlim keçməsi) | -xarici mütəxəssislərin iştirakı ilə təlimlərin təşkil edilməsi | Mütəmadi | BƏŞ, TYTŞ, KETŞ |
| 4.4 | Uşaqlar arasında geniş yayılmış xəstəliklər üzrə elmi konfransların keçirilməsi, eləcə də mütəxəssislərin beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirakının təmin edilməsi | -uşaqlar arasında geniş yayılmış xəstəliklər üzrə elmi konfransların və seminarların keçirilməsi<br><br>-mütəxəssislərin beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirakının təmin edilməsi | Mütəmadi<br><br>Mütəmadi | TYTŞ, ATU, ADHTİ<br><br>BƏŞ, TYTŞ, KETŞ |
| | | **5.İcbari dispanserizasiya sahəsində maarifləndirmə** | | |
| 5.1 | İcbari dispanserizasiyanın əhəmiyyətinə dair videoroliklərin hazırlanması, bukletlərin, plakatların və digər əyani vəsaitlərin çap edilməsi | İcbari dispanserizasiyanın əhəmiyyətinə dair videoroliklən hazırlanması, bukletlərin, plakatların və digər əyani vəsaitlərin çap edilməsi və yayılması | 2014-2015 | İSİM, MX |
| 5.2 | Şagirdlər arasında dispanserizasiya barəsində maarifləndirmə işinin aparılması | Dispanserizasiya barəsində maarifləndirməyə dair materialların hazırlanması, yayılması və bu sahədə şagirdlər arasında təşviqat işinin həyata keçirilməsi | Mütəmadi | İSİM |
| 5.3 | Uşaqların dispanserizasiyaya cəlb edilməsi məqsədilə əhali arasında sağlamlıq, xəstəliklərin risk amilləri sahəsində müvafiq mövzular üzrə maarifləndirmə kampaniyalarının həyata keçirilməsi | Əhali arasında sağlamlıq, xəstəliklərin risk amilləri sahəsində müvafiq mövzular üzrə maarifləndirmə kampaniyalarının həyata keçirilməsi | Mütəmadi | TYTŞ, İSİM, yerli tibb idarə və müəssisələri |
| 5.4 | Uşaqlar dispanserizasiyadan keçən zaman uşaqlar/valideynlər arasında sağlam həyat tərzi, xəstəliklərin risk amilləri və xəstəliklərin erkən simptomları üzrə maarifləndirmə materiallarının yayılması | Sağlam həyat tərzi, xəstəliklərin risk amilləri və xəstəliklərin erkən simptomları üzrə maarifləndirmə materiallarının hazırlanması, nəşr edilməsi və tibb müəssislərinə uşaqlar dispanserizasiyadan keçən zaman uşaqlar/valideynlər arasında paylanması | Mütəmadi | TYTŞ, İSİM, yerli tibb idarə və müəssisələri |